**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclasının**

**P R O T O K O L U № 6**

**Naxçıvan şəhəri** **30 may 2024-cü il**
**Saat: $11^{00}$**

30 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin üzvü Aidə Allahverdiyeva

**İclasda iştirak etdilər:**

1. Cəlilzadə Aidə Məhəmməd qızı -Komitənin sədr müavini
2. Həsənov Nüsrət Firudin oğlu -Komitənin üzvü
3. İbrahimov Qadir Abbas oğlu -Komitənin üzvü
4. Səfərli Hacıfəxrəddin Yəhya oğlu -Komitənin üzvü
5. Zeynalov Eldar Əhməd oğlu -Komitənin üzvü

**Dəvət olunan:**

1. Tofiq Rəcəbli - Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdir müavini

**İclasın gündəliyi:**

**“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ilkin variantının müzakirəsi.**

İclası Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 7 üzvü, həmçinin Ali Məclis Aparatının nümayəndəsi iştirak edirlər.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

Komitə sədri iclas iştirakçılarına gündəlikdə duran məsələ ilə bağlı dedi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 1 fevral tarixli 38-VI QR nömrəli Qərarı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planında "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin hazırlanması nəzərdə tutulub. Dəyişikliklərin məqsədi "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun Azərbaycan Respublikasının müvafiq qanununa uyğunlaşdırılmasıdır. Bu məqsədlə Ali Məclisin Hüquq siyasəti komitəsinin iclasında müvafiq qanun layihəsinin ilkin variantı ilə bağlı müzakirələr keçirilir.

İsmayıl Qəribli müvafiq qanun layihəsinin ilkin variantının, dəyişikliklərin müqayisəli cədvəlinin Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsi tərəfindən komitə üzvlərinə təqdim edildiyini bildirdi.

Komitə sədri qeyd etdi ki, qanun layihəsində bir neçə halda "Ali Məclisin komissiyaları" sözlərinin "Ali Məclisin komitə və komissiyaları" sözləri ilə əvəz edilməsi təklif olunur.

Bundan başqa, layihədə deputatın parlamentdaxili məsuliyyəti, deputat köməkçisi ilə bağlı normalar da nəzərdə tutulur.

Layihə barədə fikir bildirməsi üçün söz Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdir müavini Tofiq Rəcəbliyə verildi.

**Çıxışda:** Tofiq Rəcəbli qeyd etdi ki, "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsində təklif olunan dəyişikliklər əsasən texniki xarakterli olmaqla normativ hüquqi aktın "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasının aparılmasını nəzərdə tutur. Qanunun deputatın səlahiyyətləri, deputatın qanunvericilik təşəbbüsü hüququ, deputat sorğusu, deputatın vəzifələri, deputatın etik davranış qaydaları, deputatın seçicilərlə əlaqə saxlaması, deputatın nəqliyyatdan istifadə etmək hüququ, deputatın məzuniyyəti, deputatın səlahiyyət müddətləri qurtardıqdan sonra təminatları ilə bağlı müddəalarına dəyişikliklər təklif edilir. Bundan başqa ilk dəfə olaraq deputatın köməkçisi vəzifəsinin təsis edilməsi ilə bağlı təklif də layihəyə daxil edilmişdir.

**Çıxışda:** Hüquq siyasəti komitəsinin üzvü Hacıfəxrəddin Səfərli qanun layihəsinin komitə iclasında müzakirəsinin səmərəli olduğunu bildirdi.

**Çıxışda:** Hüquq siyasəti komitəsinin üzvü Nüsrət Həsənov deputatların fəaliyyəti ilə bağlı qanunvericiliyin günün tələbləri səviyyəsinə uyğunlaşdırılmasının zəruri olduğunu bildirdi.

**Çıxışda:** Komitə sədri İsmayıl Qəribli qeyd etdi ki, müvafiq qanun layihəsində 10-cu maddəyə təklif olunan dəyişiklikdə “Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinə” sözlərinin çıxarılmasının məqsədəuyğun olacağını bildirdi. Eyni zamanda deputat köməkçisi vəzifəsi təsis ediləcəyi təqdirdə onun fəaliyyətini tənzimləyəcək olan sənədin hazırlanması və müzakirə edilməsinin zəruri olduğunu da bildirdi.

**Çıxışda:** Tofiq Rəcəbli hazırda qanun layihəsinin ilkin variantının müzakirə edildiyini, qanun layihəsində deputat köməkçisi vəzifəsinin təsisi və bir neçə müddəalara dəyişikliklərə yenidən baxılmalı olduğunu bildirdi.

İclasda “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə edilən təkliflər nəzərə alınmaqla, layihə üzrə işin davam etdirilməsi və növbəti müzakirələrin keçirilməsi qərara alındı.

**İclasa sədrlik edən:** **İ.Qəribli**

**Katib:** **A.Allahverdiyeva**